# “Heydər Əliyev və ədəbi irsimiz”

**AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı Sevinc Dadaşovanın tərtibçiliyi ilə “Heydər Əliyev və ədəbi irsimiz” adlı yeni kitab çapdan çıxıb. Kitab Heydər Əliyev və Azərbaycan ədəbiyyatı mövzusunda məqalələr toplusundan ibarətdir.**




Topluda ulu öndərin Azərbaycan ədəbiyyatına olan diqqət və qayğısını əks etdirən məqalələr yer alıb. 1999-cu ildən 2022-ci ilə qədər Azərbaycan mətbuatında və internet portallarında mövzu ilə əlaqədar ölkəmizin tanınmış elm, mədəniyyət xadimləri və ziyalıları tərəfindən yazılan məqalələr günümüzün tarixindən keçmişə doğru sıralanaraq kitab şəklində çap olunub.

Kitabın tərtibçisi və ön söz müəllifi Sevinc Dadaşova yazır ki, hər xalqın özünə məxsus tarixi qəhrəmanı, xilaskarı, dar gününün pənahı olan şəxsiyyətləri olmuşdur. Azərbaycan xalqının da ağır günündə gələcəyə işıq tutan parlaq ulduzu, ulu öndəri Heydər Əliyevdir.

Yeni nəşrdə Ağsaqqallar Şurasının mərhum sədri Fəttah Heydərov, akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, filologiya üzrə elmlər doktoru Elnarə Akimova, jurnalist İradə Sarıyeva, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı, AMEA-nın müxbir üzvü, tənqidçi, publisist, filologiya üzrə elmlər doktoru Tehran Əlişanoğlu, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı, jurnalist Allahverdi Eminov və başqalarının elmi-publisistik məqalələri dərc olunmuşdur. Kitabda, həmçinin ulu öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatı barədə müdrik fikirlərinə geniş yer ayırılıb. Onun dilindən ədəbiyyatımız böyük milli sərvətimiz olaraq dəyərləndirilib.

Kitab 552 səhifədən və ulu öndər barədə maraqlı foto-blokdan ibarətdir. Kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru Akif Əliyevdir.

***Səadət MƏMMƏDOVA,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2023.- 2 iyun.- S.5.